__________ rayon məhkəməsinə

**İddiaçı:** *(Soyadı, adı, atasının adı)*
**Ünvan***:* *(faktiki yaşadığı ünvan və qeydiyyatda olduğu ünvan qeyd edilməlidir)*

**Telefon:______________________**

**Cavabdeh**: *(Soyadı, adı, atasının adı)*
**Ünvan:** *(faktiki yaşadığı ünvan və qeydiyyatda olduğu ünvan qeyd edilməlidir)*

**Telefon:______________________**

**Aliment məbləğinin həcminin artırılmasına dair**

**İDDİA ƏRİZƏSİ**

Bakı şəhəri, _______ rayon Məhkəməsinin ____________-ci il tarixli qətnaməsi ilə iddiaçı - _______________ qızı və cavabdeh - _____________ oğlu arasındakı nikah pozulmuşdur.

Həmin vaxtdan başlayaraq cavabdeh tərəflərin birgə nikahından doğulmuş ___________-ci il təvəllüdlü – _______________ oğlunun saxlanması üçün heç bir maddi kömək göstərməmişdir. Buna görə də iddiaçı aliment tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir. Bakı şəhəri, ____________ rayon məhkəməsinin _______________-ci il tarixli, iş ______________ saylı qətnaməsi ilə tərəflərin birgə nikahdan doğulmuş - _______________ oğlunun yetkinlik yaşına çatanadək saxlanılması üçün ayda __ (_____) manat aliment məbləğinin tutularaq iddiaçıya verilməsi qət edilmişdir.

Hal-hazırda ______________ oğlunun (qızının) ___ yaşı var. ___________ rayon Məhkəməsi tərəfindən çıxarılmış qətnamədə qeyd olunmuş aliment məbləği uşağın heç bir tələbatının ödənilməsinə yetmir.

Uşaq orta məktəbdə təhsil alır və ona görə də məsrəfləri yetərincə artmışdır. Bundan başqa, ölkədə yetkinlik yaşına çatmamışlar üçün yaşayış minimumu da dəyişdirilmiş və 2021-ci ildən hər uşaq üçün 175 manat müəyyən edilmişdir.

Onu da qeyd etmək istərdik ki, cavabdeh övladı ilə ümumiyyətlə maraqlanmır. Hətta məhkəmə qətnaməsi ilə müəyyən edilən alimenti belə həmin vaxtdan bəri cavabdeh bir dəfə də olsa ödəməmişdir.

Uşağın bütün qayğısını ehtiyacını tamamilə iddiaçı çəkir. Böyüdükcə uşaqda atasına qarşı ehyiyac və tələbat artsa da cavabdeh ona qarşı heç bir diqqət və qayğı göstərmir.

Uşağın təlim-tərbiyəsi ilə məşğul olmaqla yanaşı, həm də maddi tələbatlarını ödəmək tək qadın olaraq iddiaçıya çox çətindir.

Buna görə də görə iddiaçı “aliment məbləğinin artırılması” barədə iddia ərizəsi ilə məhkəməyə müraciət etmək məcburiyyətində qalmışdır. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 75.1-ci maddəsinə əsasən, valideynlər uşaqlarını saxlamağa məcburdurlar.

Həmin Məcəllənin 75.4-cü maddəsinə əsasən, valideynlər uşaqlarını saxlamadıqda uşaqların saxlanması üçün vəsait (aliment) məhkəmə qaydasında tutulur.

Həmin Məcəllənin 76.2-ci maddəsinə əsasən, bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər.

Həmin Məcəllənin 78.1-ci maddəsinə əsasən, valideynlər arasında yetkinlik yaşına çatmayan uşaqlara aliment ödənilməsi barədə saziş yoxdursa, eləcə də aliment verməyə borclu olan valideynin qazancı (gəliri) qeyri-müntəzəm, dəyişən olarsa, ya qazancın (gəlirin) hamısını və ya bir hissəsini həmin valideyn natura və ya xarici valyuta ilə alırsa, yaxud onun qazancı və ya sair gəliri yoxdursa, habelə alimentin valideynin qazancından (gəlirindən) müəyyən hissə kimi tutulması mümkün olmadığı, çətinlik törətdiyi və tərəflərdən birinin və ya marağının əhəmiyyətli dərəcədə pozulduğu başqa hallarda, uşaqların saxlanması üçün vəsait tutulmasını tələb edən şəxsin xahişi ilə alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində və ya eyni zamanda həm sabit pul məbləğində, həm də bu Məcəllənin 76-cı maddəsinə uyğun olaraq qazancın (gəlirin) müəyyən hissəsi kimi müəyyən edilə bilər

Həmin Məcəllənin 78.2-ci maddəsinə əsasən, sabit pul məbləğinin miqdarı məhkəmə tərəfindən tərəflərin maddi və ailə vəziyyəti, diqqətəlayiq olan digər hallar nəzərə alınmaqla uşağın əvvəlki təminatının səviyyəsinin mümkün qədər maksimal saxlanması əsas tutularaq müəyyən edilir

Həmin Məcəllənin 100.2-ci maddəsinə əsasən, aliment məhkəməyə müraciət edilən anadan tutulur.

Həmin Məcəllənin 112.1-ci maddəsinə əsasən, məhkəmə tərəfindən alimentin miqdarı müəyyən olunduqdan sonra, tərəflərin birinin ailə və maddi vəziyyətində dəyişiklik olmuşsa, məhkəmə tərəflərdən istənilən birinin tələbi ilə alimentin müəyyən olunmuş miqdarını dəyişə bilər.

Həmin Məcəllənin 78.2-ci maddəsinin tələblərinə əsasən, sabit pul məbləğinin miqdarı məhkəmə tərəfindən tərəflərin maddi və ailə vəziyyəti, diqqətəlayiq olan digər hallar nəzərə alınmaqla uşağın əvvəlki təminatının səviyyəsinin mümkün qədər maksimal saxlanması əsas tutularaq müəyyən edilir.

Başqa sözlə, alimentin məbləği ən azından Azərbaycan Respublikasında qüvvədə olan yaşayış minimumu normasına uyğun gəlməlidir. Azərbaycan Respublikasının “Yaşayış minumumu haqqında” Qanununun 1.0.2-ci maddəsinə əsasən, yaşayış minimumu - minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normadır.

Həmin Qanunun 1.0.1-ci maddəsinə əsasən, minimum istehlak səbəti - insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərinin elmi normalar əsasında müəyyən edilmiş toplusudur.

“Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında” Qanunun 1-ci maddəsinə əsasən, 2021-ci il üçün yaşayış minimumu ölkə üzrə 196 manat, əmək qabiliyyətli əhali üçün 207 manat, pensiyaçılar üçün 162 manat, uşaqlar üçün 175 manat məbləğində müəyyən edilsin.

Ölkə üzrə yaşayış minimumunu, minimal aylıq əmək haqqının miqdarı, eləcə də cavabdehin kifayət qədər yüksək təqaüd almasını və başqa gəlirlərinin olmasını nəzərə alaraq, hesab edirəm cavabdehdən tutulan alimentin məbləği artırılaraq hər ay 175 manata çatdırılmalıdır.

Azərbaycan Respublikasının “Dövlət rüsumu haqqında” haqqında Qanunun 9.1.2-ci maddəsinə əsasən, aliment alınması barədə iddialar üzrə - iddiaçılar dövlət rüsumunu ödəməkdən azad olunurlar.

Odur ki, yuxarıda qeyd edilənləri və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 149-151-ci maddələrini rəhbər tutaraq, Məhkəmədən

XAHİŞ EDİRƏM:

Bu iddia ərizəsi məhkəməyə təqdim edildiyi gündən yetkinlik yaşına çatmayan___________-ci il təvəllüdlü – ________________ oğlunun saxlanması üçün o, yetkinlik yaşına çatana qədər cavabdehdən tutulan alimentin məbləği artırılaraq hər ay 175 manat sabit pul məbləğinin cavabdeh - ________________ oğlundan tutularaq iddiaçı - ___________________ qızına ödənilməsi barədə qətnamə qəbul edəsiniz.

Əlavə edilir:

**1.** İddia ərizəsi – 1 nüsxədə;
**2.** Uşağın doğum haqqında şəhadətnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;
**3.** Cavabdehin yaşayış yeri barədə arayışın əsli;
**4.** Bakı şəhəri, ____________ rayon məhkəməsinin ______________-ci il tarixli, iş ______________ saylı qətnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;
**5.** İddiaçının şəxsiyyət vəsiqəsinin surəti;
**6.** Nikahın pozulması haqqında şəhadətnamənin surəti;

İddiaçı: ____________________ qızı

Tarix: “_____” ___________________ 20__ il

**QEYD: XƏTLƏRLƏ İŞARƏLƏNMİŞ YERLƏRİ DOLDURARKƏN XƏTLƏRİ VƏ MÖTƏRİZƏLƏRİN İÇİNDƏKİ SÖZLƏRİ SİLİN.**